ULUSLARARASI TÜRK DÜNYASI ARAŞTIRMALARI DERGİSİ
Cilt: 2- Sayı: 1- Ocak 2019

# 1988-1994-CÜ İLLƏR TÜRKİYƏ MƏTBUATININ AZƏRBAYCANDA BAŞ VERƏN SİYASİ HADİSƏLƏRƏ YANAŞMA TƏRZİ*

Aynurə PAŞAYEVA†

**XÜLASƏ**

1988-1994-cü illərdə Azərbaycanda baş verən siyası hadisələr Türkiyə mətbuatının əsas diqqət mərkəzində idi. Bu siyasi hadisələrin mərkəzində Qarabağ müharibəsi, müharibənin törədilmə səbəbi, ermənilərin soyqırım siyasəti və Mixail Qorbaçovun gizli siyasətinin əsil məqsədləri dayanır. Bütün hadisələr araştırmada "Cumhuriyet", "Türkiye", "Hürriyyet", "Milliyet", "Tercüman", "Halkın sesi", "Meydan" qəzetləri, "Azerbaycan türk kültür dergisi" əsasında tədqiqata cəlb olunmuşdur. Araşdırmada əsas hədəf 1988-1994-cü illər Azərbaycanlıların zorla deportasiyası, Qarabağ müharibəsinin Türkiyə mətbuatında hasnı şəkildə öz əksini tapmasını araşdırmaqdır. Araşdırmada əsas məqsəd 1988-1990-cı illərdəki siyasi hadisələri Türkiyə mətbuatında işıqlandırması, 20 Yanvar 1990-cı il faciəsinin soykırımı, erməni yalanlarını və Qarabağ müharibəsinin Türkiye mətbuat səhifələrində analiz və təhlil etməkdir. Bu tədqiqatın mövzusu dünya medyasının əsas diqqət mərkəzində olan problemə həsr olunduğundan araşdırılması olduqca əhəmiyyətlidir. Araşdırmada müqayisəli və analitik təhlil metodundan istifadə edilmiş, konkret nümunələr əsasında təhlillər aparılmışdır.

**Açar sözlər:** Azərbaycan, Türkiyə, Soyqırım, qaçqınlıq, Qarabağ, müharibə, mətbuat, Füzuli, Cəbrayıl.

# TURKEY PRESS APPROACHES TO AZERBAIJAN POLITICAL DEVELOPMENTS IN 1988-1994

**ABSTRACT**

Political events in Azerbaijan in 1988-1994 are the main focus of the Turkish press. In the midst of these political events, the war in Karabakh, the reason for its commitment, the genocide policy of the Armenians and the genuine goal of Mikhail Gorbachev's policy. All political events in the research will be investigated on the basis of"Cumhuriyet", "Turkiye", "Hurriyyet", "Milliyet", "Terjuman", "Halkın sesi", "Meydan" newspapers and "Azerbaycan türk kültür" journal. The main target is to investigate the migration of azerbaijanis to Caucasian, Karabakh war, how the reflection of this events in Turkey press. The main goal of the investigation is to research the reflection 1988-1994 Azerbaijan political events in Turkey media, 20 January 1990 tragedy, Armenian lies and Karabakh wars on the Turkey press pages . This investigation is very important to analys, because this investigation is the main peoblem in world media. In paper will be used from the comparative-analytical and scientific description of methods of analysis. The author's point of view will be shown in concrete specimens.

**Key words**:Azerbaijan, Turkey, genocide, migration, Karabakh, war, media, Fuzuli, Jebrail.

## Giriş

1988-1994-cü illər Azərbaycanda gərgin siyasi hadisələrə qarşı münasibət mətbuat nümunələrində bəzən obyektiv, bəzən üstüörtülü şəkildə öz əksini tapırdı. 70 il Qərb jurnalistika təcrübəsindən uzaq düşmüş, sovet xofunu yaşayan 1988-1994-cü illərdə Azərbaycan mətbuatı hələ də söz və mətbuat azadlığından istifadə etmək imkanı yox idi. Mətbuat üzərində olan senzura 1998-ci ilə qədər davam etməkdə idi. Yalnız

* *Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir –* ***Qrant № EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/15/5.***

† Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, aynure8@mail.ru

Ümumilli lider Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu.

Müstəqil Türkiyə mətbuatında 1988-1994-cü illər erməni soyqırımlarını araşdırdıqda Azərbaycan həqiqətlərini dəstəkləməklə yanaşı, real faktları olduğu kimi işıqlandırmışdı. 1988-1994-cü illər Türkiyə mətbuatı ayrıca tədqiqata cəlb olunmamışdır, buna görə də tədqiqat işinin elmi yenilik dərəcəsini bir daha ortaya qoyur.

2011-ci il 25 oktyabr tarixində Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin baş naziri Rəccəb Tayyip Ərdoğanla görüşü zamanı mətbuat konfransında bildirmişdi: "Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və qardaşlıq mövqeyinə görə bir daha bütün türk xalqına başda əziz qardaşım Baş nazir Tayyib Ərdoğan olmaqla minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan xalqı bu qardaşlıq münasibətini yüksək qiymətləndirir və haqlı işimizdə Türkiyənin dəstəyi bizim üçün çox önəmlidir" (2011, 25 oktyabr, https://president.az/articles/3390).

25 aprel 2018-ci il tarixində Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında Prezident İlham Əliyevin nitqində qeyd etmişdi: "Biz hər zaman bir-birimizin yanında olmuşuq. Bu gün də belədir, sabah da belə olacaq. Türkiyə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli işində həmişə bizim yanımızda olmuşdur. Biz də öz növbəmizdə bütün məsələlərdə Türkiyənin yanındayıq" (Əliyev: 25 aprel 2018).

## 1. 1988-1990-cı illər siyasi hadisələrinin Türkiyə mətbuatında əksi

1988-1990-cı illər Türkiyə mətbuatında ən çox diqqət çəkən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sonuncu Baş Katibi, SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçov və onun qeyri-səmimi siyasəti, erməni soyqırımları və Qarabağ hadisələridir.

Ümumilli lider Heydər Əliyev 1987-ci il 19 oktyabr tarixində erməni lobbisinin təzyiqi ilə keçmiş Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldıqdan sonra, həmin ilin 18 noyabr tarixində Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edir. 1987-ci il 1 dekabr tarixində erməni təmsilçiləri Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim edir. 1988-ci ilin 25 yanvar tarixində ermənilər azərbaycanlıların yaşayış məntəqələrinə basqınları nəticəsində Ermənistan SSR-in Qafan və Meğri rayonlarından yüzlərlə azərbaycanlı qaçqınlar Azərbaycanın müxtəlif bölgələrinə gəlmək məcburiyyətində qalır. Bundan sonra siyasi hadisələr daha da gərginləşir.

Həmin dövrdə müstəqil Türkiyə mətbuatı Azərbaycanda baş verən siyasi hadisələri daha açıq şəkildə demək imkanı vardı. Bu baxımdan soyqırım həqiqətlərini 1988-1994-cü illər Türkiyə mətbuatında araşdırmaq olduqca vacib və əhəmiyyətlidir.

1988-ci ilin Türkiyə mətbuatında əsas diqqət mərkəzində Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sonuncu Baş Katibi, SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun apardığı məkirli siyasəti aşkar etməkdir. Əslində isə Türkiyə mətbuatı M.Qorbaçovun 1985-ci ildə elan etdiyi aşkarlıq və demokratiya siyasətinin pərdəarxası məqamlarını duyurdu, onun yalançı sosializm vədləri tənqid edirdi ("Hürriyyet" qəzeti, 14 yanvar 1988: s.12; 18 yanvar 1988: s.13; 20 mart 1988: s.12). Eyni zamanda ermənilərin Qarabağla birlikdə Naxçıvanı ələ keçirmək niyyəti olduğunu, buna görə Qorbaçovun təhrik etmələri ("Hürriyet" qəzeti, 25 fevral 1988:s.20) mətbuatın diqqətindən qaçmırdı. Qorbaçovun yalançı yenidənqurma və aşkarlıq siyasəti "Azerbaycan türk kültür dərgisi"də tənqid olunur, rusları 20 Yanvardan sonra ölkəni tərk etməyə səsləyirlər (Karaca, 1990,sayı 271, yıl 39: s.3-5).

Çünki həmin dövrdə 151 milyon ermənin 4 milyonu SSR-də, 2 milyonu Ermənistan, Azərbaycanda isə 475 min erməni vardı. Bu bir həqiqət idi ki, "ermənilər RSFSR-də və digər respublikalarda dövlət dairələrinin ən üst aparatlarda dövlət mexanizmasında önəmli vəzifələri tutduqları bir həqiqətdir" (Kengerli, 1989: sayı 267: s. 13). Müxtəlif məqalələrdə ermənilərin daima ABŞ-dakı erməni lobbisi ilə əlaqədə olduğu verilmişdir.

SSR-də yaranan xalqların üsyanını keçmiş rəhbərlərin spekulyativ fəaliyyətində, onların qanunsuz işgüzarlığında görürdülər ("Hürriyet" qəzeti,3 iyul 1989: s.10).

"Azerbaycan türk kültür" dərgisində Ahmet Karaca "Dağlıq Qarabağda sovetlərin acizliyi" adlı siyasi publisistik məqaləsində Abel Aqanbekyanın ermənilərin fitva alaraq 1988-ci ildn ABŞ, Avropadan erməni lobbisinin gücü ilə Dağlıq Qarabağa çoxdan göz qoyduqları haqqında informasiya verir. Məqalədə 1978-ci ildə Azərbaycan SSR Konstitutsiyasında 83, 83-cü maddələrdə Azərbaycanın tərkibindən DQMV verilməsi hqqında qanun qəbul edildiyi bildirirlir (Karaca, 1989, №267 : s.4-7).

Professor Vilayət Quliyev də ermənilər xaricdə bağlantıları sayəsində azərbaycanlıları soyqırım cinayətində təqsirləndirməsini əsilsiz olduğunu, Gürcüstan, Azərbaycan Türkiyədən torpaq ələ keçirib "Böyük Ermənistan" yaratmaq istəyi olduğunu qeyd etmişdi (Quliyev, 12 mart 1988: s. 10).

31 dekabr 1989-cu il tarixində Moskvanın Azərbaycana qarşı tutduğu qərəzli mövqeyi və sərhəd rejiminin sadələşdirilməməsinə etiraz əlaməti olaraq Naxçıvan ərazisində Ordubaddan Sədərəyədək 137 km uzunluğunda SSRİ-İran sərhəd qurğuları sökülərək dağıdılır. Hal-hazırda həmin tarix 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günü kimi rəsmi dövlət bayramı kimi qeyd edilir.

Bu məsələ Türkiyə mətbuatında müxtəlif səpkidə işıqlandırılmışdı. İran sərhədində azərbaycanlıların sərhədi dağıtması, "Tehran Times" qəzetində Kremlin azərbaycanlılara göstərdiyi təzyiqdən əl çəkməsi ilə bağlı etirazı, Ağdamda 2 nəfərin ölü, 2 nəfərin yaralanması ilə nəticələnən ermənilərin avtobusa silahlı hücumu ("Hürriyet" qəzeti, 7 yanvar 1990: s.12), azərbaycanlıların Naxçıvanla Türkiyə sərhədlərini yıxması, gərgin vəziyyətin Dağlıq Qarabağda çaxnaşma yaratması ("Milliyet" qəzeti, 10 yanvar 1990: s. 4) əks olunmuşdur.

## 2. 1990-cı il 20 Yanvar faciəsinin Türkiyə mətbuatında işıqlandırılması

1990-cı il Bakıda və respublika rayonlarında 131 nəfərin ölümü,744 nəfərin yaralanması ilə nəticələnən dəhşətli 20 Yanvar faciəsi Türkiyə mətbuatında öz səbəkarları və faciəviliyi ilə əksini tapmışdır.

20 Yanvar faciəsi törədilməmişdən öncə Qızıl Ordu silahlı dəstələrinin gəlişi Azərbaycan mətbuatında gizlədilirdi. Ancaq "Hürriyet" qəzetinin 17 yanvar 1990-cı il sayında dərc olunan "Kafkasya'da dehşet" xəbərində 11 min Qızıl ordu, KKB və donanma birlikləri Bakıya üsyanı yatırmaq üçün gəldiyi göstərilir ("Hürriyet" qəzeti, 17 yanvar 1990: s.12).

Faciənin qurbanlarının statistik saylarda müxtəliflik göstərirdi. Hadisələrin dəhşətli faciələri "Cumhuriyet" qəzetinin müxtəlif səpkili məqalələrində ( "Bakü kan ağlıyor", "Cumhuriyet" qəzeti, 21 yanvar 1990, s. 1.; "Bakü savaş alanını andırıyor", "Cumhuriyet" qəzeti, 21 yanvar 1990, s. 14; "Türkiye'deki azeriler gelişmelerden endişelendi", "Cumhuriyet" qəzeti, 21 yanvar 1990, s. 14; "Bakü'de dev gösteri", "Cumhuriyet" qəzeti, 22 yanvar 1990, s. 1; "Bakü'de dev protesto gösterisi", "Cumhuriyet" qəzeti, 22 yanvar 1990, s. 16; "Bakü'de Kremlin'e uyarı", "Cumhuriyet" qəzeti, 23 yanvar 1990, s. 11; "Bakü'den Moskova'ya ultimatum", "Cumhuriyet" qəzeti, 23 yanvar 1990, s. 15; "Azerbaycan gergin", "Cumhuriyet" qəzeti, 24 yanvar 1990, s. 1; "Çatışmaların önü alınamıyor". "Cumhuriyet" qəzeti, 24 yanvar 1990, s. 14; "Bakü'ye gözaltı", "Cumhuriyet" qəzeti, 25 yanvar 1990, s. 1.; Nadir Devletin"Çatışmaların kaynağı milliyyetçilik". "Cumhuriyet" qəzeti, 24 yanvar 1990, s. 14.; "Bakü durulmuyor". "Cumhuriyet" qəzeti, 26 yanvar 1990, s. 1; "Bakü'e tekbirli protesto", "Cumhuriyet" qəzeti, 27 yanvar 1990, s. 1) öz əksini tapmışdır.

Jurnalist Cenk Başlamışın "Azerilerden ültimatom" adlı xəbərində 20 Yanvar faciəsində 83 ölü, 14 əsgər olduğu, Qorbaçov faciənin səbəbkarı, Azərbaycanın istiqlal mitinqi Qorbaçov üçün təhlükə olduğu qeyd olunur. B.Vahabzadə, M.Aslanın telefon zəngi ilə Bakının təhlükəli olduğu, xalq cəbhəsinin silahı olmadığı qeyd olunmuşdur (Başlamış, 23 yanvar 1990: s.4).

Bakıda xalqdan xəbərsiz qoşun yeridilməsi, 120 nəfərin ölümünü, dəhşətli faciəni jurnalist Arif Alıyev belə təsvir edirdi: "O gecə Bakıda qorxunc mənzərə vardı. Çox dəhşətliydi. Xeyli insan tankların altında qaldı. Ölənlərin arasında uşaqlar da vardı. Əsgərlər yalnız camaatın üzərinə deyil, evlərə və binalara atəş açdı. Bu sırada çox uşaq öldü, işıqsaçan güllələr atıldı. Yaralıların çoxu arxasından, çiynindən, belindən vurulmuşdu. 3 gün öncə xəstəxanalarda yer ayrılmışdı. Hücum olacağını bilir, amma camaatı aldadırdılar" (Aliyev, 22 yanvar 1990: s.4).

Bu dövrdə Türkiyə mətbuatındakı yazılarda ermənilərin işğalçılıq tarixinə nəzər salınır. Ermənilərə fransız və rusların dəstəyi ilə respublika yaratmaq fikirləri irəli sürülmüşdü ("Cumhuriyet" qəzeti, 7 yanvar 1990: s. 2).

Ümumiyyətlə "Cümhuriyyət" qəzetində çap olunan məqalələrdə azərbaycanlılara qarşı yalan xəbərlərə qarşı etiraz daha güclüdür. Hətta 20 Yanvar faciəsindən sonra ümumilli lider Heydər Əliyevin Qorbaçovun böhtan dolu çıxışlarına qarşı Moskvada mətbuat konfransında etiraz etməsi "Cumhuriyet" qəzetinin 22 yanvar 1990-cı il sayında "Bakü'de dev protesto gösterisi" xəbərində öz əksini tapmışdı: "Azərbaycan Kommunist partiyası ümumi katibliyini 14 il aparan şəxs kimi Azərbaycan xalqını yaxşı tanıyıram. Qorbaçovun iddia etdiyi kimi Azərbaycanda İranla birləşməyi məqsədli bu İslam radikalizmi axını qətiyyən yoxdur. Azərbaycanda dini radikalizmdən söz gedə bilməz" ("Cumhuriyet" qəzeti, 22 yanvar 1990: s. 16).

1990-cı illərdə SSR-də baş qaldıran üsyanlara Mixail Qorbaçov başqa don geyindirməyə çalışırdı. "Cumhuriyet" qəzetinin "Azeriler Kızıl orduya direniyor" "İzvestiya" qəzetindəki İranın azərbaycanlılara silah yardımı və M.Qorbaçovun "radikal islamçılığın" baş alıb getməsi haqqında məlumatı yalanlayır ("Cumhuriyet" qəzeti, 20 yanvar 1990: s. 14). "Mihail Gorbaçov'a destek" məqaləsində türklərə nifrət dolu "The

Sunday Teleqraf" qəzetində çap olunan "Azərbaycanlıların erməniləri yox etmək istəkləri" kimi fikirləri yalan olduğu sübuta yetirir ("Cumhuriyet" qəzeti, 22 yanvar 1990: s. 16).

O dövrdə Azərbaycanda fəaliyyət göstərən "Vətən" cəmiyyəti qeyd edirdi ki, Qərb mətbuatı təktərəfli çıxış edərək Azərbaycanlıları qaniçən, vəhşi kimi, erməniləri isə "məzlum" olaraq təqdim edirlər (Şenocak. 21 yanvar 1990: s. 14.), hətta "Vətən" cəmiyyəti o dövrdə Türkiyə mətbuatında 20 Yanvar faciəsini ermənilər törətdiyini isbat edirdi ("Cumhuriyet" qəzeti, 21 yanvar 1990: s. 1).

"İnönü: Azərbaycan sosial zəlzələsi" ("Cumhuriyet" qəzeti, 24 yanvar 1990: s. 14) məqaləsində SHP rəhbəri Erdan İnönü, DYP rəhbəri Süleyman Dəmirəl 20 Yanvar hadisələrinə çox təəssüflənir, bunu "sosial zəlsələ" kimi adlandırır, bunda səbəbkar Qorbaçovu görürdü.

Ergün Bala "Azərbaycan və bəzi məlumat qurumları" məqaləsində "Herald Tribune", "İzvestiya", "Ekonomist" jurnallarında 20 Yanvarla bağlı xəbərləri analitik şərh edir. Sonda 20 Yanvar faciəsinin törədilmə səbəbində Qorbaçovun xalqın azadlıq üsyanını boğmaq məqsədi dayandığını qeyd edir (Bala, 29 yanvar 1990: s. 3).

20 Yanvar faciəsinin törədildikdən sonra Moskvada iclasda faciəni törədən SSR-nin Müdafiə naziri Dmitri Yazov rus qoşunun yeridilməsinə səbəb yerli hakimiyyətə qarşı olduğunu qeyd edir (Başlamış, 28 yanvar 1990: s.4; Başlamış, 27 yanvar 1990: s.4).

Bəzən mətbuat nümunələrində Ermənistanla Azərbaycan arasındakı gərgin münasibətin Türkiyə üçün təhlükəli olacağı düşünülür (Kohen, 27 yanvar 1990: s.4), bəzən öz mənfəətlərini qorumağa çalışan SSR ilə münasibəti korlamamaq üçün II Dünya ölkələrinin, ərəb ölkələrin susmasının səbəbini sual kimi ortaya qoyulur (Kohen, 26 yanvar 1990: s.4). İrlandiyanın paytaxtı Dublində xarici işlər nazirləri Bakıdakı faciənin törədilməsini SSR-nin öz daxili siyasəti kimi qiymətləndirir ("Milliyet" qəzeti, 22 yanvar 1990, s.4) və bu məsələyə qarışmamaq mövqeyini üstün tutmuşdur.

M.Qorbaçov baş verən üsyanlar və azadlıq hərəkatının kökündə tolerantlıq və dini bərabərliyin olmamasını böhtan kimi azərbaycanlılara qarşı irəli sürür. 1988-ci il 2 dekabrda "TRT" kanalında "32 gün" adlı verilişdə M.Ali Birand ziddiyyətli çıxışına görə "Azərbaycan türk kültür" dərgisində tənqid olunsa da, jurnalist "Milliyet" qəzetində "Azerbaycan olayları din değil" məqaləsində erməni-azərbaycanlı müharibəsinin dinin əsas səbəbkar amil olmadığını qeyd edir, hətta türkləri də bu savaşa qoşulmağa dəvət edir (Birand, 24 yanvar 1990: s.4).

1990-cı ilin 20 Yanvar faciəsindən sonra da Bakıda gərginlik davam edirdi. Əzizə Cəfərzadə müsahibəsində qeyd edir ki, Bakıda əhalinin çölə çıxa bilməməsi, dərman çatışmazlığı, təhlükə içərisində, dövlət dairələrinin bağlı olmasından şikayətlənir. (Akdemir, 24 yanvar 1990: s.4).

Naxçıvanın SSR-də ayrılıb müstəqillik elan etməsi, Qorbaçov etdiyi cinayətə görə azərbaycanlı miliyyətçilərini günahlandırması, 100 İran əsgərinin Azərbaycan sərhədini keçib görüşməsi nəticəsində, 57-ci sovet əsgərləri tərəfindən öldürülməsi əksini tapıb (Başlamış, 21 yanvar 1990: s. 4).

Bir sıra azərbaycanlı ziyalılar 20 Yanvar faciəsindən sonra dünya ictimaiyyətinə Azərbaycan xalqına qarşı olan ədalətsizliyi bəyan etməyə çalışmıdır. Faciədən sonra Kommunist partiyasına qarşı nifrətini partiya biletini məhv edərək bildirmişdir. Bu Azərbaycan mətbuatındakı kimi Türkiyə mətbuatında çap olunan xəbərlərdə öz əskini tapmışdır ("Hürriyet" qəzeti, 25 yanvar 1990: s. 12). Hətta 1990-cı il 20 yanvar faciəsindən sonra azərbaycanlı ziyalılar 153 imzalı açıq məktubla ABŞ-a müraciət

etmiş, Qızıl Ordunun qan axıtmağa davam etdiyi bildirmişdir (“Milliyet” qəzeti, 27 yanvar 1990: s. 4).

Faciənin törədildiyi vaxt Türkiyə dövlət adamlarından Azərbaycan həqiqətlərini dəstəkləyənlər olmuşdur. 1990-cı il yanvar ayında ABŞ-da keçirilən konfransda ANAP Elazığ deputatı Zeki Yavuztürk Sovet müdaxiləsinin türk milləti tərəfindən kədərlə qarşılandığını qeyd edərək Amerikanın ikili siyasətini tənqid edir (Ergin, 27 yanvar 1990: s.10). Konstitutsiya məhkəməsi başqanı Yekta Güngör Yuxarı Qarabağda ermənilərin azərbaycanlılara qarşı qətliamlarını dünya ictimaiyyətinə çatdırmışdır (Anayasa Mahkemesi Yukarı Karabağ’da ermenilerin giriştiği. Azerbaycan türk kültür dergisi, 1991: sayı 284, s.41).

Hətta o dövrdə fəaliyyət göstərən Qarabağa Xalq yardım komitəsinin insanlıq çağrısı “Azerbaycan türk kültür dergisi”də yayımlanmışdı. 7 milyon azərbaycanlının şərəf və heysiyyətini tapdalandığı, 1988-ci ilə qədər azərbaycanlılar tərəfindən ermənilərə heç bir ayrıseçkilik qoyulmadığı böyük hiddətlə bildirilir: “Biz müstəqil Azərbaycanın tərəfdarıyıq, biz Azərbaycan Demokratik Cümhuriyyətinin qurucusu Məmməd Əmin Rəsulzadənin 1918-ci ildə elan etdiyi tək bir Qafqaz evinin tərəfdarıyıq. Fəqət yalançı istəkləri SSR liderləri Moskvanın dəstəklədiyi və məqsədi qonşu dövlərin torpaqlarını ilhaq etmək yolu ilə yeni “1000 illik Reyx “Böyük Ermənistan” olmağı planlaşdıran erməni işğalçılarına qurban verdi” (Azerbaycan türk kültür dergisi, 1990:sayı 274, s. 42).

Ədəbiyyatşünas alim Dr. Enver Aras Bakıdakı 20 Yanvar faciəsinə nəzər salır, Qorbaçovu günahlandırır, tənqid edir. (Aras, 1990: sayı 271, s. 45).

İstiqlaliyyət tələb edən azərbaycanlıların üzərinə tanklar yeridən M.Qorbaçova Nobel Sülh Mükafatının verilməsi Ahmet Karacanı hiddətləndirir (Karaca, 1990: sayı 276, s. 3).

Dr. Mehmet Kengerli “Qanlı Yanvar qətliamının pərdəarxası” siyasi publisistik məqaləsində bütün soyqırımların tarixinə nəzər salır: “1988-ci il 28-29 fevralda, erməni və KKB pravakatorlarının tərtib və təhlükərəi ilə Sumqayıt qanlı hadisələri başlayır” (Kengerli, 1991: sayı 277, s. 6).

### 3. Mətbuatda erməni yalanları

Ermənilər Dağlıq Qarabağ iddilarını həyata keçirməkdə xaricdə güclü erməni lobbisi dəstəyi alırdı, bunu Türkiyə mətbuatı nümunələrində dərc olunan xəbər və xəbər korrespondensiya yazılarında görmək mümkündür. Bu xəbərlərdə ermənilər 1988-ci ildən etibarən böhtan dolu yazılarla çıxış edərək özlərini azərbaycanlılar tərəfədən təqiblərə məruz qalmış “günahsız xalq” kimi təqdim etməyə çalışırdılar.

Ermənilər var gücü ilə dünya ictimaiyyətinə azərbaycanlıların soyqırım cinayətkarı kimi qələmə vermək üçün müxtəlif aksiya keçirdirlər. 1988-ci il 24-26 fevral tarixində ermənilər video çəkdirərək dünyaya nümayiş edirir ki, azərbaycanlılar ermənilərlə etnik münaqişə var. Xəstəxanadakı ermənilərin yalan faktla azərbaycanlılar tərəfindən hücuma məruz qaldığını bəyan edirlər (“Hürriyet” qəzeti, 12 mart 1988: s. 10). Bununla belə Yunanıstanda ermənilər aksiya keçirərək azərbaycanlıların ermənilərə qarşı soyqırım etmələri ilə bağlı protesto etdilər (Atina, 19 yanvar 1990, s. 4). Ermənilər qəbirstanlıqda azərbaycanlıların onlara qarşı həyata keçirdiyi “soyqırımlar”a qarşı dünya mətbuatının susmasını etiraz aksiyası keçirir (“Hürriyet” qəzeti, 14 mart 1988: s.12). 1 ay Xankəndində heç bir erməni azərbaycanlılardan özünü qorumaq üçün çölə çıxmayaraq “səssiz aksiya” keçirdir (“Hürriyet” qəzeti, 27 mart 1988: s. 27).

Az müddət sonra dünya mətbuatı erməni lobbisinin dəstəyi ilə bu yalançı aksiyalara cavab verir. İngilis BBC kanalı Bakıda ermənilərin Azərbaycanı tərk etməsi ilə bağlı aksiya haqqında məlumat verir. Moskva da erməni istəklərinə boyun əyməyə çağırması ("Hürriyet" qəzeti, 13 iyun 1988: s.12), Qarabağı Ermənistana birləşdirmək üçün İrəvanda ermənilər tətilə başlaması ilə bağlı artıq Türkiyə mətbuatında xəbərlər dərc olunur ("Hürriyet" qəzeti, 14 iyun 1988: s. 12). Həmin dövrdə Ermənistan Naxçıvanın Ermənistana mənsub olması haqqında ermənilər çirkin iddialar irəli sürdülər, hətta Naxçıvanın Ermənistana geri verilməsini tələb etdilər ("Milliyet" qəzeti, 18 yanvar 1990: s.4). ABŞ-da Mançester şəhərində ermənilər soyqırıma məruz qalmaqla bağlı çıxışlar etsə də, Kolumbiya və Nyu York Universitetlərinin professorları Robert Leqvold, Qrahan Füller azərbaycanlıları dəstəklədi (Songur, 17 yanvar 1990: s.4).

Məşhur Azərbaycan şairi və publisisti Bəxtiyar Vahabzadə "Türkiyədən dəstək gözləyirik" müsahibəsində ermənilərə Fransa və İtalyanın yardım etdiyi, 27 kəndin talan edilməsi, Türkiyədən dəstək gözlədiyi qeyd olunur (Vahabzade, 18 yanvar 1990: s. 12).

Jurnalist M.Ali Birand müəllif Qərb dünyası SSR-nin xristian dini bayraq altında ermənilərə dəstək olması, azərbaycanlıları yalançı cəllad adlandırmalarına qarşı çıxır: "Sadəcə Qərb deyil, Sovet mətbuatı eyni havadadır. Bu günkü vəziyyət illərdir sürən bir əməliyyatın sonudur. İllərdir azərbaycanlılar susarkən Dağlıq Qarabağ sorunu ortaya atanlar ermənilərdir" (Birand, 17 yanvar 1990: s.4). Həm də o, Türkiyə üçün Qarabağ problemi təhlükə yaradacığını bildirir.

70 ilə yaxın dünya medyası ilə əlaqəsi zəif olan Azərbaycan mətbuatı "xalqlar dostluğu" tendensiyasını irəli sürən zaman erməni əsilli jurnalistlər 1980-ci illərdə azərbaycanlılara qarşı dünya medyasında təbliğat kompaniyasını aparır, xaricdən özünə dəstək qüvvəsi toplamışdı. Hətta erməni əsilli fransız müğənnisi Çarlez Aznovour "Frans-İnfo" radyosunda verdiyi müsahibədə ermənilərə silah yardım etdiyini qeyd edir (Perlman, 17 yanvar 1990: s. 4). Fransanın köhnə naziri Çarliz Hernu ermenilərə dəstək verən çıxışı zamanı infarkt keçirərək ölür (Perlman, 19 yanvar 1990: s. 4). Buna görə də Türkiyə mətbuatında yalançı erməni iddialarını, mətbuatda dilletant yanaşmaları araşdırmaq soyqırım həqiqətlərinin tanıdılması baxımından əhəmiyyət daşıyır.

### 4. Qarabağ müharibəsi Türkiyə mətbuatında

Qarabağ müharibəsini Türkiyə mətbuatı işıqlandırmaqda 1988-1994-cü illərdə böyük aktivlik göstərmişdir. 1988-ci il 20 fevral tarixində Dağlıq Qarabağ Muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qəbul edilmiş qərara anlayışlı yanaşılması üçün Azərbaycan və Ermənistan Ali Sovetlərinin Rəyasət Heyətlərinə müraciət edilmiş, bu məsələnin müsbət həlli üçün SSRİ Ali Soveti qarşısında vəsatət qaldırılmışdır. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında" anti-konstitutsyon qərar qəbul etmişdir. Xankəndində Ermənistan bayrağı qaldırılmış, muxtar vilayətin idarə və müəssisələri bütünlüklə Ermənistana tabe etdirilmişdir.

Qarabağ iddiasını ermənilər başlatmasını (Yalçın, 19 yanvar 1990, s.4), Uğur Mumcunun "Erməni dəstəyi" siyasi publisistik məqaləsində erməni döyüşçülərinə Fransanın silah və pul yardımı faktını təsdiq edir. Bu dəstəyin tarixi köklərinin lap keçmişlərə dayandığını izah edir (Mumcu, 19 yanvar 1990: s.4).

Ermənilərə dəstək olan qüvvənin mövcudluğu, xalqın mənfəətini deyil, yalnız öz mənfəətini düşünən xain, vətən satqınlarının olduğu Azərbaycan mətbuatında əks

olunmasa da, Türkiyə mətbuatı bu məsələyə toxunmuşdur. 1993-cü ildə Türkiyə atəşkəsin elan olunmasının tərəfdarı olsa da, Dağlıq Qarabağın xarici işlər naziri Arkadi Qukasyanın Avropa Müdafiə və İşbirliyi konfransında barış planını rədd edirdi, hətta Türkiyə mətbuatında qeyri rəsmi şəkildə fəaliyyət göstərən Talış Muğan Respublikasının ermənilərlə əlaqəyə girməsi bildirilmişdir (Başlamış, 22 avqust 1993: s.18).

Cenk Başlamışın "Azərbaycanın 20% ermenide" adlı xəbərində İrana 60 min azərbaycanlı qaçqının gəlməsi, ermənilərin hücuma dayanacağı ilə bağlı vədləri, İran kəndlərinə erməni mərmilərinin düşərək əhaliyə zərər verilməsi yer alıb (Başlamış. 22 avqust 1993: s.18).

"Qarabağın əsas problemi" məqaləsində Moskvanın Azərbaycan qərarı olmadan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etməsi, Ermənistandan 200 min azərbaycanlının qaçqın gəlməsi, ölkənin iqtisadiyyatının geriləməsi yer alıb ("Milliyet" qəzeti, 30 yanvar 1990: s. 4).

Dağlıq Qarabağ məsələsinin kökündə Stalinin sərhəd müəyyən etmə siyasəti dayandığı qeyd olunur (Kohen,  24 yanvar 1990: s. 14).

Ermənistanın Xarici işlər naziri Cilail Libaridyan Ermənistana silahlı yardım edilməsi Laçının işğalı ilə Kəlbəcərə yol açılması, rusların ermənilərə silah satdıqları bildirilir ("Cumhuriyet" qəzeti, 4 avqust 1993: s.6).

"Cumhuriyet" qəzetinin 18 avqust 1993-cü il sayında "Ermənilərə rus dəstəyi" başlıqlı məqaləsi erməni dəstəyi haqqında xəbərlərə nümunədir. Ermənilərin o dövrdə son model silah sursatlardan istifadə etməsi, Şuşanın hücuma məruz qalmasından BBC, Routers xəbər agentliklərinə istinad edərək azərbaycanlıların hücuma məruz qalıb qaçması haqqında fakt xəbər verir ("Milliyet" qəzeti, 29 fevral 1993: s. 11).

Thomas Golts Azərbaycanda hakimiyyət uğrunda döyüşlər, Milli Məclisin o dövrdə yaxşı fəaliyyət göstərməməsi tənqid edirdi (Golts. 14 avqust 1993: s. 12). Ancaq o bu gərgin vəziyyətdə ulu öndər Heydər Əliyevin demokratik ənənlərə sadiq siyasi xadim kimi qiymətləndirilir. Məşhur jurnalist T.Golts o dövrdə Azərbaycan Respublikası Prezidentinin Qarabağ üzrə fövqəladə səlahiyyətli nümayəndəsi, Azərbaycan ordusunun korpus komandiri Surət Hüseynovun orduda pul qazancı axatarmasını qeyd edirdi (Golts. 17 avqust 1993: s. 12).

Ermənilərin Füzulinin Qaraməmmədli kəndinə hücumu, əhalinin qaçqın düşməsi, Azərbaycan təyyarələrinin bombalanması ("Cumhuriyet" qəzeti , 9 avqust 1993: s. 9), Avropa İttifaqı, BMT ermənilərə işğal etdikləri torpaqılardan geri çəkilməsini dəstəklədiyini Türkiyə mətbuatında öz əksini tapan məslələrdəndir ("Cumhuriyet" qəzeti , 9 avqust 1993, s. 9.). Çox təəssüflər olsun ki, bu yalnız səslənən çağrı olaraq qalırdı, ermənilər hücum əməliyyatları törətməkdə davam edirdi.

Daha sonralar da BMT-nin Müdafiə konseyinde işğalçı ermənilərin Azərbaycan torpaqlarından çəkilməsi ilə bağlı xəbərdarlıq edilmişdi ("Cumhuriyet" qəzeti, 19 avqust 1993: s.9). Bəzi mənbələrdə Türkiyənin Azərbaycana dəstək göstərəcəyi qeyd olunurdu ("Cumhuriyet" qəzeti, 20 avqust 1993: s.9). Hətta Türkiyə naziri Yıldırım Aktuna Türkiyənin qapıları hər zaman azərbaycanlılara açıq olduğu, qaçqınlara sığınacaq verməyə razı olduğunu ("Cumhuriyet" qəzeti, 28 avqust 1993: s.14), Türkiyənin sülh tərəfdarı olduğu. Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu təsdiqləyən (Yalçın. 29 fevral 1992: s.11) xəbərlər bildirilir.

Ağdamın 6 kəndinin erməni və rus birliklərinin işğalı, Füzulidə 60 min insanın üsyanı  ("Cumhuriyet" qəzeti, 15 avqust 1993: s. 9) mətbuatda dərc olunurdu.

***Füzulinin*** ermənilər tərəfindən işğalı ilə bağlı ("Fuzuli de düşmek üzere", "Türkiye" qəzeti, 15 avqust 1993, s. 9; "Füzuli ve Cebrail düşmek üzere", "Halkın sesi" qəzeti, 22 avqust 1993, s. 18.; "Azeri birlikleri Füzuli'den çekildi", "Halkın sesi" qəzeti, 24 avqust 1993, s.2.; "Cebrail düştü sırada Füzuli var", "Halkın sesi" qəzeti, 24 avqust 1993, s. 14; "Vehbi Sargın. Fizuli düştü", "Meydan" qəzeti, 23 avqust 1993, s. 9.; "Fizuli'de sokak çarpışmaları", "Cumhuriyet" qəzeti , 17 avqust 1993, s. 9.), ***Cəbrayılın işğalı*** ("Ermeniler Cebrail'i aldı", "Cumhuriyet" qəzeti, 20 avqust 1993, s. 9; "Cebrail'de ermeni vahşeti iddiası", "Cumhuriyet" qəzeti, 21 avqust 1993, s. 9; "Cebrail kenti de düştü", "Cumhuriyet" qəzeti, 25 avqust 1993, s. 9; "Cebrail düştü, Fizuli sırada", "Türkiye" qəzeti, 20 avqust 1993, s. 9; "Cebrail de ermeni kıskacında", "Tercüman" qəzeti, 20 avqust 1993, s. 4.; Vehbi Sargının "Cebrail'de vahşet", "Meydan" qəzeti, 21 avqust 1993, s.9.) məlumatları Türkiyə mətbuatında gedən ilkin sensasiyalı xəbərlərdir. "Cebrail'de ermeni vahşeti iddiası" ("Cumhuriyet" qəzeti, 21 avqust 1993, s. 9); Vehbi Sargının "Cebrail'de vahşet" xəbərində ("Meydan" qəzeti, 21 avqust 1993, s.9) məqaləsində ermənilərin soyqırım cinayətləri barədə məlumat verir. Azərbaycanlılara qarşı törədilən soyqırımların öz faciəsi ilə Xocalıdan geri qalmadığı bildirilir. "Turan" agentliyi ermənilərin öncəki gün işğal etdikləri Cəbrayıl qəsəbəsində dustaq etdikləri 14 azərbaycanlı əsgərinin öncə başlarının kəsilməsi, daha sonra da sinələrinin parçalanıb ürəklərinin çıxardılması soyqırım faktlarına nümunədir.

Məşhur savaş müxbiri İrfan Sapmaz "Azərbaycanlılar ölüm qısqacında" xəbərində Füzulinin alınması ilə Qubadlıda aclıq, kəndlərdə qadınlar ermənilərin əlinə keçməsin deyə intihar edilməsi dəhşətli soyqırım faktlarını təsdiq edir (Sapmaz, 23 avqust 1993: s. 18).

## Nəticə

1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzini araşdırdıqda aşağıdakı elmi nəticələrə gəlmək olur.

1. Türkiyə mətbuatında 1988-1994-cü illər hadisələrinə münasibətdə ilk öncə diqqət Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sonuncu Baş Katibi, SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun apardığı siyasətin məkirli və gizlin tərəflərini aşkar etmək analitik şərhlərdə qarşıya məqsəd kimi qoyulmuşdu.

2. 1990-ci ilin 20 Yanvar faciəsi ilə bağlı Türkiyə mətbuatında hadisələrə münasibət Azərbaycan mətbuatının sofet xofundan çıxamayan mətbuat nümunələri ilə müqayisədə daha demokratik, real faktlara yanaşmada daha obyektiv şəkildədir. Ancaq faciənin səbəbkarı M.Qorbaçov və erməni ekstremistləri olduğu açıqca bildirilir.

3. 1992-1993-cü illər Qarabağ müharibəsini Türkiyə mətbuatı işıqlanadırmaqda demokratik prizmadan yanaşmış, ermənilərin işğalçılıq siyasətinin mənbəyində Qərb dövlətlərinin və Rusiyanın dəstəyini açıq şəkildə qeyd edir. Bəzi siyasi-publisistik məqalələrdə ermənilərin işğalçılıq siyasətinin müəyyənləşdirən şərhlərdə Qərbin dəstəyi öz əksini tapmışdır.

4. Eyni zamanda Qarabağ müharibəsində məğlub olma səbəbi də Azərbaycanda o zamankı rəhbərlərin hakimiyyət uğrunda mübarizəsi, idaretmə sisteminin və ordunun zəifliyi kimi amillər də qeyd olunur.

5. Ümumilli lider Heydər Əliyevin demokratik siyasəti, hakimiyyətə gəldikdən sonra atəşkəsin elan olunması, aparılan uğurlu islahatlar Türkiyə mətbuat nümunələrində öz əksini tapmışdır.

6. 70 ilə yaxın dünya medyası ilə əlaqəsi çox zəif olan Azərbaycan mətbuatı "xalqlar dostluğu" tendensiyasını irəli sürən zaman erməni əsilli jurnalistlər azərbaycanlılara qarşı dünya medyasında təbliğat kompaniyasını aparır, xarici dövlətlərdən uydurma yalanlarına dəstək qüvvəsi toplamışdı.

7. Ermənilərin dünya mətbuatında 1988-1990-cı illərdə diletant, yalan, böhtan dolu çıxışlar edən zaman Türkiyə mətbuatı obyektivlik prizmasından çıxış edərək məlumatları yalan fakt olduğunu sübuta yetirmişdir.

8. 1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzində dost və qardaş mövqedən yanaşmışdır.

Ümumiyyətlə, 1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi Müstəqillik dövrü Azərbaycan mətbuatında səslənən fikirlərlə üst-üstə düşür. Bu tədqiqat elmi jurnalistika və mətbuat araşdırmaçıları, eyni zamanda soyqırım tarixçiləri üçün gərəkli mənbələrdir və müasir dövrdə də aktuallığını qoruyub saxlamaqdadır.

***QEYD:*** *Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir –* ***Qrant № EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/15/5.***

## ƏDƏBİYYAT

ALIYEV, A. (1990). Çocukları bile öldürdüler. "Milliyet" qəzeti, 22 yanvar, s.4.
Azeriler sınır tanımıyor. "Milliyet" qəzeti, 1990, 10 yanvar, s. 4.
Azeriler Kızıl orduya direnoyor . "Cumhuriyet" qəzeti, 1990, 20 yanvar, s. 14.
Azerbaycan gergin. "Cumhuriyet" qəzeti, 1990, 24 yanvar, s. 1.
AKDEMIR, İ. (1990). Toprağımız için çarpışıyoruz. 24 yanvar, s.4.
Bakü kan ağlıyor. "Cumhuriyet" qəzeti, 1990, 21 yanvar, s. 1.
Bakü savaş alanını andırıyor. "Cumhuriyet" qəzeti, 1990, 21 yanvar, s. 14.
Türkiye'deki azeriler gelişmelerden endişelendi. "Cumhuriyet" qəzeti, 1990, 21 yanvar. s. 14.
Bakü'de dev gösteri. "Cumhuriyet" qəzeti, 1990, 22 yanvar, s. 1.
Bakü'de dev protesto gösterisi. "Cumhuriyet" qəzeti, 1990, 22 yanvar, s. 16.
Bakü'de Kremlin'e uyarı. "Cumhuriyet" qəzeti, 1990, 23 yanvar, s. 11.
Bakü'den Moskova'ya ultimatum. "Cumhuriyet" qəzeti, 1990, 23 yanvar, s. 15.
Bakü durulmuyor. "Cumhuriyet" qəzeti, 1990, 26 yanvar, s. 1.
Bakü'ye gözaltı. "Cumhuriyet" qəzeti, 1990, 25 yanvar, s. 1.
Bakü'e tekbirli protesto. "Cumhuriyet" qəzeti, 1990, 27 yanvar, s. 1. BALA, E. (1990), Azerbaycan ve Bazı Bilgi kurulları."Cumhuriyet" qəzeti, 29 yanvar, s. 3.
BAŞLAMIŞ, C. (1990). Bakü Moskovayı böldü. "Milliyet" qəzeti, 1990, 28 yanvar. s.4.
BAŞLAMIŞ, C.1990).Gorbi köşeye sıkışıyor. "Milliyet" qəzeti, 27 yanvar, s.4.
BAŞLAMIŞ, C. (1990), Azerilerden ültimatom. "Milliyet" qəzeti, 23 yanvar, S. 4.
BIRAND, M. A. (1990), Azerbaycan olayları din değil. "Milliyet" qəzeti, 24 yanvar, s.4.
Büyük Ermenistan hayali. "Hürriyet" qəzeti, 1988, 12 mart, s. 10.
Çatışmaların önü alınamıyor. "Cumhuriyet" qəzeti, 1990, 24 yanvar, s. 14.
DEVLET, N. (1990), Çatışmaların kaynağı milliyyetçilik. "Cumhuriyet" qəzeti, 24 yanvar, s. 14.

İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur. (2011)... https://president.az/articles/3390...25.10.2011.
ƏLIYEV, İlham (2018). “Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında İlham Əliyevin nitqi”. https://president.az/articles/28444. 25.04. 2018.
Gorbaçov “reform cambazı”, “Hürriyyet” qəzeti, 1988, 14 yanvar, s.12.
KURCAN, C. (1988), Gorbaçov’un niyyeti. “Hürriyyet” qəzeti, 18 yanvar, s.13.
Gorbaçov fırtınası. “Hürriyyet” qəzeti, 1988,20 mart, s.12.
Ermeniler Gorbaçov’un başını ağrıtıyor. “Hürriyet” qəzeti, 1988, 25 fevral, s.20.
KENGERLI, M. (1989). Sovyetlerde Ermeni Lobisi. Azerbaycan türk kültür dergisi, sayı 267, s. 10-21.
Moskova’da günah çıxarıyor. “Hürriyet” qəzeti, 1989, 3 iyul, s.10.
KARACA, A. (1989). Dağlık Karabağ’da sovetlərin Acizliyi. Azerbaycan türk kültür dergisi, sayı 267, yıl 38, s. 4-7.
Sovyet Azerileri ayaklandı. “Hürriyet” qəzeti, 1990,7 yanvar, s.12.
Kafkasya’da dehşet. “Hürriyet” qəzeti, 1990, 17 yanvar, s.12.
Ermeni sorumu. ABD ve ermeniler. “Cumhuriyet” qəzeti, 1990, 7 yanvar, s. 2.
Mihail Gorbaçov’a destek. “Cumhuriyet” qəzeti, 1990, 22 yanvar, s. 16.
ŞENOCAK, Y. (1990), Bizi boğuyorlar. “Hürriyet” qəzeti, 21 yanvar, s. 14.
Bakü kan ağlıyor. “Cumhuriyet” qəzeti, 1990, 21 yanvar, s. 1.
Bakü’de dev protesto gösterisi. “Cumhuriyet” qəzeti, 1990, 22 yanvar, s. 16.
İnönü: Azerbaycan sosyal depremi. “Cumhuriyet” qəzeti, 1990, 24 yanvar, s. 14.
Kızıl Ordu’yu şikayet. “Milliyet” qəzeti, 1990,27 yanvar, s.4.
KOHEN, S. (1990). Yatışırsa iyi olur. “Milliyet” qəzeti, 27 yanvar, s.4.
KOHEN, S. (1990). Neden susuyorlar? “Milliyet” qəzeti, 26 yanvar, s.4.
Batı, SSCB’yi haklı buldu. “Milliyet” qəzeti, 1990, 22 yanvar, s.4.
KOHEN, S. (1990). Türkiye’ye iltihak. “Milliyet” qəzeti, 21 yanvar, s. 4.
Sovyetler geri addım atdı. “Hürriyet” qəzeti, 1990, 25 yanvar, s. 12.
ERGIN, S. (1990), ABD Kongresi’de Azerbaycan uyarısı. “Hürriyet” qəzeti, 27 yanvar, s.10.
KARACA, A. (1990). Perestroyka-Glastnost’un Azerbaycan katliamı ve insanlık. Azerbaycan türk kültür dergisi, sayı 271, yıl 39, s. 3-5.
ARAS, E. (1990).Kan Gölüne Çevrilen Azerbaycan. Azerbaycan türk kültür dergisi, sayı 271, s. 45.
Azerbaycan Bilimler Akademisi “Karabağ”a halk yardım komitəsi”nin insaniyyet çağrısı. Azerbaycan türk kültür dergisi, 1990, sayı 274, yıl 39, s. 42.
KARACA, A. (1990). İnsan Hakları, Nobel ve Ermeni Atağı. Azerbaycan türk kültür dergisi, sayı 276, s. 3.
KENGERLI, M. (1991). Kanlı Ocak Katliamının Perde Arkası. Azerbaycan türk kültür dergisi, sayı 277, s. 6.
Büyük Ermenistan hayali. “Hürriyet” qəzeti, 1988, 12 mart, s. 10
ATINA, A.A. (1990), Soykırım çığlıkları. “Milliyet” qəzeti, 19 yanvar, s. 4.
Moskova’da Ermeni sancısı. “Hürriyet” qəzeti, 1988, 14 mart, s.12.
Erivan meydan okudu. “Hürriyet” qəzeti, 1988, 27 mart, s. 27.
Azerbaycan’da milliyyetçi partlama. 1988, 13 iyun s.12.
Türkiye’ye Turancılık suçlamalası. “Milliyet” qəzeti, 18 yanvar 1990, s. 4.
VAHABZADE, B. (1990). Türkiye’den destek bekliyoruz. “Hürriyet” qəzeti, 18 yanvar,s. 12.

SONGUR, İ. (1990). ABD'de Ermeni gösterileri. "Milliyet" qəzeti, 17 yanvar, s. 4.
PERLMAN, M. (1990). Aznavour saçmaladı. "Milliyet" qəzeti, 17 yanvar, s. 4.
BIRAND, M.A. (1990). Gorbaçovun böyük qumarı. "Milliyet" qəzeti, 17 yanvar, s.4.
PERLMAN, M.. (1990). Söz sözlerinde ermenileri destekledi. "Milliyet" qəzeti, 19 yanvar, s. 4.
Anayasa Mahkemesi Yukarı Karabağ'da ermenilerin giriştiği. Azerbaycan türk kültür dergisi, 1991, sayı 284, s.41
BAŞLAMIŞ, C. (1993).Karabağ'dan AGİK'e rest. "Milliyet" qəzeti, 22 avqust, s.18.
BAŞLAMIŞ, C. (1993). Azerbaycanın %20 ermenide. "Milliyet" qəzeti, 22 avqust, s.18.
MUMCU, U. (1990). Ermeni desteği. "Milliyet" qəzeti, 19 yanvar, s. 4.
YALÇIN, N..(1990), Çalışmaları ermeniler başlatdı. "Milliyet" qəzeti, 19 yanvar, s. 4.
Karabağ temel sorunu. "Milliyet" qəzeti, 1990, 30 yanvar, s. 4.
KOHEN, S., (1990). Tanklarla olmaz "Milliyet" qəzeti, 24 yanvar, s. 14.
Erivan'dan Karabağa'a silah. "Cumhuriyet" qəzeti, 1993, 4 avqust s.6.
Ermenilere rus desteği. "Cumhuriyet" qəzeti, 1993,18 avqust, s. 9.
Cephede savaş, Moskova'dan geri addım. "Milliyet" qəzeti, 1993, 29 fevral s. 11.
GOLTS, T. (1993). Özgür Azerbaycan'ın tükenişi. "Cumhuriyet" qəzeti , 14 avqust, s. 12.
GOLTS, T. (1993). Özgür Azerbaycan'ın tükenişi. "Cumhuriyet" qəzeti , 17 avqust, s. 12.
Azerbaycan'da ateşkes bozuldu. "Cumhuriyet" qəzeti , 1993, 9 avqust, s. 9.
BM'den ermenilere uyarı. "Cumhuriyet" qəzeti, 1993, 19 avqust, s.9.
Ermenistan sorumluluktan kaçamaz. "Cumhuriyet" qəzeti, 1993, 20 avqust, s.9.
Türkiye'nin kapıları Azerilere açık."Cumhuriyet" qəzeti, 1993, 28 avqust , s.14.
YALÇIN, Nilufer. (1992). Ankara'dan barış atağı. "Milliyet" qəzeti, 29 fevral, s.11.
Ermeniler 6 Azerbaycan köyünü ele geçirdi. "Cumhuriyet" qəzeti, 1993,15 avqust, s. 9.
Fuzuli de düşmek üzere. "Türkiye" qəzeti, 1993,15 avqust, s. 9.
Füzuli ve Cebrail düşmek üzere. "Halkın sesi" qəzeti, 1993, 22 avqust, s. 18.
Azeri birlikleri Füzuli'den çekildi. "Halkın sesi" qəzeti, 1993, 24 avqust, s.2.
Cebrail düştü sırada Füzuli var. "Halkın sesi" qəzeti, 1993, 24 avqust, s. 14.
SARGIN, v. (1993).Fizuli düştü. "Meydan" qəzeti, 23 avqust, s. 9.
Fizuli'de sokak çarpışmaları. "Cumhuriyet" qəzeti , 1993,17 avqust, s. 9.
Ermeniler Cebrail'i aldı. "Cumhuriyet" qəzeti, 1993,20 avqust, s. 9.
Cebrail'de ermeni vahşeti iddiası. "Cumhuriyet" qəzeti, 1993, 21 avqust, s. 9.
Cebrail düştü, Fizuli sırada. "Türkiye" qəzeti, 1993, 20 avqust, s. 9.
Cebrail de ermeni kıskacında. "Tercüman" qəzeti, 1993, 20 avqust, s. 4.
Vehbi Sargın. Cebrail'de vahşet. "Meydan" qəzeti, 1993, 21 avqust, s.9.
Ermeniler Cebrail'i aldı. "Cumhuriyet" qəzeti, 1993, 20 avqust, s. 9.
Cebrail kenti de düştü. "Cumhuriyet" qəzeti, 1993, 25 avqust, s. 9.
Cebrail'de ermeni vahşeti iddiası. "Cumhuriyet" qəzeti, 1993, 21 avqust, s. 9.
SAPMAZ, İ. (1993). Azeriler ölüm kıskacında. "Hürriyet" qəzeti, 23 avqust, s. 18.